# "Ey müsəlmanlar, birləşin ki, dağınıq millət çox tez puç olar..."

## Həsən bəy Zərdabi "Əkinçi"nin səhifələrində yazırdı

**Zərdabişünas alim Esmira Cavadova öz həyatını jurnalistikaya, araşdırmaya, elmi tədqiqatlara həsr edib. O, 1920-ci ilə qədər olan Azərbaycan jurnalistikasının zəngin kartotekasını hazırlayıb. 1980-ci ildən etibarən araşdırma ilə məşğul olmağa başlayıb. Onun yaradıcılığının əsas hissəsini Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin həyat və yaradıcılığı ilə bağlı araşdırmalar təşkil edir.**

**Bununla yanaşı, Esmira xanım Həsən bəy Zərdabinin 1897-1907-ci illərdə Bakı Dumasındakı fəaliyyəti ilə əlaqədar də fundamental araşdırma aparıb. Həmin əsərdə Zərdabinin Dumada qaldırılan məsələlərə münasibəti öz əksini tapıb. Həmin dövrdə Zərdabi xalqımızın taleyüklü məsələlərini, o cümlədən elm və təhsillə bağlı qayğılarını, müxtəlif problemlərdən dolayı narahatlıqlarını dilə gətirib.**

**Esmira Cavadova Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində dərc olunmuş məqalələrini təqdim edir.**

*(Əvvəli ötən sayımızda)*

Qəzetin həmin sayında "Məktubat" başlığı altında Hacı Seyid Əzim Məliküşşüəranın öz oğlu Mirsəfərə yazdığı "Nəsihətnamə"si çap olunub. "Nəsihətnamə"dən məlum olur ki, Seyid Əzim oğlunu Şamaxıda yenicə açılmış uşkola (rus məktəbi - E.S.) qoyur və xalqın məzəmmətini görüb elm təhsil etməyin vacibliyini oğluna başa salaraq belə məsləhət edir: (ixtisarla)

*Cəfər, ey qönçeyi-gülüstanım!*
*Ey mənim bülbüli-xoşəlhanım!*
*Demirəm rus, ya müsəlman ol,*
*Hər nə olsan, get əhli-ürfan ol.*

* * *

*Xassə kim, padşahi-kişvəri - Rus,*
*Eyləyir tərbiyət kəmal əhlin,*
*Gətirir halə hər məhal əhlin,*
*Hər ülayətdə açdı məktəblər,*
*Çatdılar feyzə əhli-mənsəblər.*
*Oxunur onda müxtəlif dillər,*
*Həll olur onda cümlə müşküllər,*
*Ey oğul, bu dəlili-bişəkdir,*
*Edəmi-bisəvad eşşəkdir.*

* * *

*Kim ki, bəs bir dil eyləsə hasil,*
*Oldu bir nemətə o kəs vasil.*
*Cəhd elə isməti-təmamə yetiş,*
*Elm təhsil gil, məqamə yetiş.*

*"Əkinçi" 1876, N11, 11 iyun.*

"Nə qədər ki, cənab Staroselski bizim Bakubədə qubernator idi, bizim qəzet haqqında elədiyi yaxşılıqlardan danışmırdıq, amma indi o cənab Bakubədən çıxıb gedib, ona binaən onun yaxşılıqlarından bir neçə kəlmə danışmağı biz özümüzə vacib bilirik. Cənab Staroselski bizim qəzetin bina olunmağına bais olub. 3 il bizə izn vermirdilər ki, qəzeti çap etdirək. Buna ümdə səbəb bu idi ki, Bakubədə dövlət tərəfindən qəzetlərə mülahizə edən adam yoxdur. Amma ol cənab bizə zamin olub o izni bizim üçün aldı. Bir neçə müsəlman birləşib zor verməşdik ki, hürufat gətirdib qəzeti çap etməkdən ötrü əlahiddə çapxana açdıraq. Amma biz hürufatı İstanbuldan gətirəndən sonra ol icma bərhəm oldu və biz özümüz çapxana açdırmağa məqdur olmadıq. Ol zaman cənab Staroselski zikr olan hürüfatı qubernski pravleniyanın çapxanası üçün aldı ki, indiyəcən orada bizim qəzet çap olunur. Sonra uyezdni naçalniklərə hökm verdi ki, kəndlərə poçt işləmədiyinə onlardan qəzet istəyən olsa, çaparlar ilə onlara qəzet göndərsinlər. Xülasə, cənab Staroselski həmişə "Əkinçi" qəzetinin xeyirxahı var idi. Ona binaən biz özümüzə vacib bilib bu neçə kəlməni onun yaxşılıqları barədə yazıb, bizim qəzetin dostlarına bəyan edirik. Qoy onun ismi tarixlərə düşüb baqqi olsun".

*"Əkinçi" 1876, N12, 25 iyun, "Daxiliyyə".*

"Sörçil adlı ingilis təbibi sinə naxoşluğu olan kəslərin bədəninin əcralarını imtahan edib deyir ki, ol naxoşluğa düşən şəxsin bədənində fosfor adlı şey azalır. Çünki fosfor ki, ondan kibritlərin başı olur, bərk zəhərdir, ona binaən onu çox az naxoşa vermək olur. Bu təcrübəni edənlər deyir ki, sinə naxoşluğuna fosfor vermək qeyri müalicələrdən yaxşıdır".

*"Əkinçi" 1876, N12, 25 iyun, "Elm xəbərləri".*

"Əkinçi" qəzeti bina oluncan bizim heç bir qəzetimiz ya jurnalımız olmayıb.

"Əkinçi"nin adını qəzet qoymaqdan muradımız ancaq qövmiyyə xəbərlər yazmaq idi. Amma bizim eldə jurnal olmadığına naəlac qalıb həmi təzə xəbərlərdən, həm elm və qeyri xəbərlərdən danışırıq".

*"Əkinçi" 1876, N14, 25 iyul, "Daxiliyyə".*

"Osmanlı dövlətinin Suriya vilayəti ki, ona xristianlar Palestinya deyirlər və orada Şam, Şərifi-Qüds, Şərifi-Beyrut və qeyri şəhərlər var, keçmişdə yəhudilərin vətəni olub. amma həzrəti-İsa əleyhüssəlam vəfat edəndən sonra bir Rum şahı məmləkəti-yəhudini payimal edib ki, indiyəcən yəhudilər yer üzünə dağılıb hər bir tərəfdə dadistəd edirlər. Məsələn, bizim Rusiya dövlətində 4 milyon yəhudi var ki, onlardan heç bir əkinçi yoxdur, hamı sənətkarlıq ya tacirlik edirlər.

Avropada ol qədər elm olmayıb, yəhudilərə çox zülm ediblər, amma onilə belə onlar öz dillərində və məzhəblərində daim olduqlarına yəhudi milləti indiyəcən tələf olmayıb. Avropada olan yəhudilər bir ictimai-milləti bina ediblər ki, ol icma özlərinin qədim dillərində 5 qəzet çıxardıb, hər məmləkətin yəhudilərinə göndərir ki, onları öz dillərində və məzhəblərində saxlasın. Ondan masəva ol icma bu xəyala düşüb ki, Osmanlı dünləbindən zikr olan Suriya vilayətini satın alıb qayırsın. İndi ol icma çıxardan "Həmqeyd" qəzeti yazır ki, bundan ötrü icma 56 milyon manat cəm edib və onun valisi Qəvaddali bu halda İstanbula deyb ki, dövləti-Osman ilə Suriya vilayətinin barəsində danışsın.

* * *

Rusiyanın Voloqod quberniyasında qədim zaman Zizyan adlı bir tayfa sakin olurmuş. Yazırlar ki, ol tayfa indi elə azalıb ki, onlardan bir neçə kənd qalıb və onlar həm qeyri tayfalara elə qarışıllar ki, bu yavuq zamanda bilmərrə tələf olacaqlar".

*"Əkinçi" 1876, N16, 23 avqust, "Təzə xəbərlər".*

"Zəlzələ 3 qism olur: ləpə kimi, tullama, dolandırma. Ləpə kimi olanda yer su ləpələnən kimi tərpənir, yəni onun bir tərəfi qalxanda, o biri tərəfə düşür. Tullanma olanda yer tullanıb düşür. Dolandırma olanda yer fırlanır".

*"Əkinçi" 1876, N18, 22 sentyabr, "Elm xəbərləri".*

"Qəzetin həmişəlik çap olunması üçün gərək Tiflisdə çapxana nur olsun, yoxsa 1-2 ilə bizim qəzet bərhəm olacaq. Belədə lazımdır ki, bizim tavana kəslər qəzet fikrində olub bir icma bina etsinlər ki, onlardan vüsal olan məbləğ ilə çapxana açılsın, qəzet basılsın. Haşa bu iş bir tək adam işi deyil. Bizə məlumdur ki, heç kəs özünə tavana deməz. Pul ver sözü heç kəsə xoş gəlməz.

Ey müsəlmanlar, vaxt keçməmiş fikrinizi birləşməyə verin ki, dağınıq millət çox tez puç olar.

Dağıstandan Mehdi xan İsmiyev Qeytağı yazır ki, qəzetin qiymətini artırmayıb onu həftədə bir çıxardaq ki, tavana kəslərimiz onun artıq xərcini versinlər və özü mədyun olur ki, ayda 10-15 manat göndərsin... Belədə 1-2 adamın cüzi köməyindən karsazlıq olmaz, yaxşıdır ki, cəm olub 5-20 min manat yığaq, onun sələmi ilə həmişəlik və qiyməti az qəzet çıxarmaq olsun.

Ey millət təəssübü çəkən qardaşlar, əgər qəzetin xeyrini başa düşüb onun baqqi olmağını istəyirsiniz, indi vaxtdır. Dəmir qızmış ikən onu döymək gərək, yoxsa sonra onu qızdırmaq düşvar olur".

*"Əkinçi" 1876, N19, 8 oktyabr, "Daxiliyyə".*



"20 il bundan sabiq Firəng, İngilis Osmanlı ilə birləşib Rusiya ilə elədiyi cəngin barışığı Firəngistanın Paris şəhərində olduğuna ona Paris Sülhü deyirlər ki, ol sülhnaməyə Rus, Firəng, İngilis, Osmanlı, Avrasiya, Russiya, İtaliya qol çəkib. Ol sülhnamənin bir şərti budur ki, Osmanlı dövləti Avropa dövləti hesab olunsun və zikr olan dövlətlərdən iznsiz heç bir dövlət Osmanlı ilə cəng eləməsin. Həmçinin zikr olan sülhnaməyə görə Serb Qaradağ və qeyri əyalətlərə ki, Osmanlıya xərac verillər, bəzi ixtiyarlar verilib. Bəzi Avropa dövlətləri yazılan şərtlərlə razı olmadılar".

*"Əkinçi" 1876, N19, 8 oktyabr, "Təzə xəbərlər".*

"Bakubədə oktyabrın 10 və 11-də bərk xəzri əsib (buna tufan da demək olar), çox yelkən gəmisi tələf edib, iki ataş gəmisini - birisi "Baryatinski" və birisi "İran" şikəst edib. Bakubənin Corat qəzyəsinin əhlinin qoyun sürüsünü ki, 950 qoyunu olub, aparıb dənizə qərq edib. Sürünün çobanı bu zaman vəfat edib.

Oktyabrın 11-də olan tufan günü Dərbənd, Petrovski, Poti, Suxum, Amerika şəhərlərində də olub.

* * *

Peterburqda akademiyanın əcayibxanası var ki, altı hissədir: birinci hissədə 7000 çap olunan qədim kitab var. 2-ci yazma kitabxanasıdır ki, orada 1200 müsəlman kitabı ərəb, fars, türk dillərində, 1200 Xəta, Mancur, Yapon, 100 Tibeti - Monqol 200 gürcü, erməni 200 sanskrit, yəni qədim Hindistan dillərində, 3-cü hissədə üstü yazılı daşlar və qeyri-qədim şeylər, o cümlədən perqament üstə yazılan Quran saxlanır. 4-cüdə 20 000 pul ki, çoxu qədim müsəlman dövlətlərinin sikkəsidir. 5 və 6-cı hissələrdə müsəlmanların və yəhudilərin çox qədim qeyləri saxlanır".

*"Əkinçi" 1876, N20, 22 oktyabr, "Təzə xəbərlər".*

"Bizim müsəlman tayfası ingilis tayfalarından nə qədər geri qaldığını "Əkinçi" qəzetinə və London şəhərində çap olunan "Tayms" qəzetinə baxmaq ilə bilmək olur:

"Tayms" hər gündə iki dəfə, "Əkinçi" iki həftədə bir çıxır. "Tayms" hər dəfə iki vərəq üstə, "Əkinçi" yarı vərəq üstə çap olunur. "Tayms"ın hər vilayətində müxbiri var ki, təzə xəbərləri yazıb məlum edir, onun hər fəslini bir neçə adam yazır. Amma "Əkinçi"ni yazan bir adam olduğuna bəzi vaxtda, hətta Bakubədə vaqe olan işlərdən bixəbər olur. "Tayms" qəzetini ingilisin qeyri şəhərlərində oxuyurlar. Qəzetin dəmiryol ilə onlara bir gündə yetişməyi çox bilib xahiş edirlər ki, qəzet onlara dexi tez yetişsin. Ona binaən onu çap edən teleqraf kimi maşın ixtira edib ki, onların hər dişini basanda hər şəhərdə bir hürüf düzülür. Sonra hamı şəhərlərdə bir saatda, bir dəqiqədə qəzet çap olunub tamam olur.

"Əkinçi" qəzetini hər həftəyə güc ilə düzüb çap edəndən sonra palçıqlı yollar ilə öküz əzzadəsində kəndə çatdırır. "Tayms" elanнamə çap etməkdən hər gündə 200 manatdan ziyadə alır, amma "Əkinçi" iki illik müddətində bir manat da almayıb.

"Tayms"ın 100 mindən ziyadə müştərisi var, "Əkinçi" 300 müştəriyə həsrət çəkir... Bizim bir "Əkinçi" qəzetimiz var və əgər onu çap etmək ixtiyarını satmağa dursaq, nə ki, ona bir qəpik verən olmaz, hətta onu cəbrən də boynuna götürən olmaz, tapılmaz... Buna səbəb odur ki, ingilis əhli dünya işində mahir və hər elmdən xəbərdar olduğuna ...onlar kamallı və xeyirli sözün qədrini bilir ki, onlardan ol qədər qəzet oxuyan var.

Bəli doğru deyillər ki, zərin qədrini zərgər bilər... Ay qardaşlar, vaxt keçməmiş səy edin ki, elm təhsil edib zindeganlıq cəngində faiq olasınız, yoxsa bir qərinədən sonra iş tamam olur... hadisənin əlacını gərək o baş verməzdən əvvəl edəsən".

*"Əkinçi" 1876, N23, 6 dekabr, "Daxiliyyə".*

Həmin sayın "Təzə xəbərlər" bölməsində məlumat verilir ki, "Rusiyada bəzi kəndin əhli icma ilə əkin və ziraət edir. İndi "Zemledelçeski qəzeti" yazır ki, Finlandiya vilayətində 3 il bundan sabiq bir qəryədən 15 külfət birləşib yerlərini bir ediblər ki, onu birgə əksinlər. Hasilatdan gələn məhsulu öz aralarında bölüblər. Ol icma bina edənlər elə tavanalı olublar ki, əkin üçün maşınlar gətirdib, öz uşaqları üçün məktəbxana açıb onun müəlliminə ildə 300 manat verillər. Belə camaat ilə iş görməyin bir xeyri də budur ki, tənbəl olan kəslər həm gərək işləsin, yoxsa onlara hissə verməməkdən başqa, calislikdən də xaric edirlər. Nəhayət, bir kəs həqiqət naxoş olsa, ona hissə verillər".

*"Əkinçi" 1876, N23, 6 dekabr, "Təzə xəbərlər".*

"...Bizim Qurban bayramından murad bu deyil ki, xalq qurban kəsib onun ətini yeyib kefdamağa məşğul olsun, onun bir əsli, muradı həm var ki, Qurban bayramını qeyri bayramlardan artıcaq şərafətli edir. Qurban günü tavanalı müsəlmanlar Məkkəyə cəm olub, bir yerdə ziyarət edib, bir-birinə öz dərd-qəmlərindən xəbər verillər. Yəni Qurban bayramını artıcaq şərafətli olmağına səbəb oldur ki, bu bayramda olan ziyarət ittihadi-islama vaisdir. Pəs Məkkəyə getməkdən maraq bir bu deyil ki, gedib ziyarət edib qayıdasan. Lazımdır ki, oraya cəm olan müsəlmanları görüb əhvalpürsan olub öz qardaşlarını tanıyıb biləsən. Biz elə avam olmuşuq ki, nə ki, qeyri tayfaları, hətta öz qardaşlarımızı tanıyıb bilməyə qadir deyilik. Pəs qardaşlar, məktəbxanalar bina edib oxuyun ki, heç olmasa öz qardaşlarınızın dilini (burada ərəbfars dilinə işardir) öyrənib, müsəlmanların ittihadına əməl edə biləsiniz, yoxsa bizim gözəl Qurban bayramı və Məkkə səfəri ölünün əyninə geyilən faxır libasa oxşayır. Qurban bayramı və Məkkə ziyarətinin hikməti böyük olur".

*"Əkinçi" 1876, N24, 22 dekabr, "Daxiliyyə".*

**Qeyd: Həsən bəy Zərdabinin "Əkinçi" qəzetində çap olunmuş məqalələri, yazdığı və ya topladığı xəbərləri "Əkinçi" 1875-1877. Tam mətni transliterasiya və tərtib edəni: Turan Həsənzadə; Ön sözün müəllifi və redaktoru: Əziz Mirəhmədov, Bakı, "Avrasiya press", 2005, 496 s. kitabından seçilmişdir.**